# Folklor nümunələri kiçik yaşlı uşaqların vətənpərvərlik tərbiyəsi vasitəsi kimi

**Nuranə Valeh qızı Hacızadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** hacizade.psixoloq@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. Z.İ. Vəliyeva

**Açar sözlər:** tərbiyə, folklor, təhsil, vətənpərvərlik, uşaq, tərbiyə, şəxsiyyət
**Ключевые слова:** воспитание, фольклор, воспитание, патриотизм, дети, воспитание, личность
**Key words:** education, folklore, education, patriotism, children, upbringing, personality

Təhsilin ilkin pilləsi olan məktəbəqədər yaş dövrü uşaqlarda əxlaqi keyfiyyətlərin inkişafı üçün əsas dövrdür. Uşaqlarda vətənpərvərlik hisslərinin başlanğıcı məhz bu dövrdə formalaşmağa başlayır. Vətənə məhəbbət hissi müqəddəs hissdir və bu hissin yaranması uşağın anadan olduğu ailədən başlanır və məktəbəqədər təhsil müəssisələrində davam etdirilir.

Uşaqların vətənpərvərlik haqqında müəyyən təsəvvür və biliyə yiyələnməsi, onların vətənə şüurlu münasibətlərinin formalaşmasında folklor nümunələrindən istifadə mühüm vasitələrdən biridir. Azərbaycan uşaq folkloru şifahi xalq yaradıcılığının bir hissəsini təşkil edib kiçik yaşlı uşaqların vətənpərvərlik ruhunda tərbiyə olunmasında geniş imkanlara malikdir. Şifahi xalq yaradıcılığına oxşamalar, laylalar, bayatılar, nəğmələr, tapmacalar, nağıllar, dastanlar, atalar sözləri və s. qiymətli nümunələr daxildir. Uşaqların vətənpərvərlik hissinin formalaşdırılmasında zəngin bədii dəyərlərə malik nağılların, dastanların, atalar sözlərinin müstəsna rolu vardır.

Xalq nağılları uşaqların körpəlik dövründə eşitdikləri söz sənətinin ilk nümunələrindən biridir və öz mahiyyəti etibari ilə kiçik yaşlı uşaqların təbiətinə uyğun gəlib, onların təfəkkürünə, təsəvvürünə olduqca yaxındır. Nağıllar uşaqları ətraf aləmə məhəbbətə, elə-obaya sədaqətə, xeyirxahlığa, qəhrəmanlığa sövq edir və xəbisliyə, paxıllığa, satqınlığa qarşı nifrət hisslərini oyadır. Bu folklor nümunəsində müsbət əxlaqi keyfiyyətlər geniş əks olunmuşdur. İnsana qarşı humanist münasibətin, doğma yurda məhəbbətin, onun qorunması haqqında fikirlərin yaranması nağıllarımızda qəhrəmanlar vasitəsi ilə göndərilmişdir [1, s. 92].

Məktəbəqədər tərbiyə müəssisələrində vətənpərvərlik tərbiyəsinə aid nağılların kiçik yaşlı uşaqlara çatdırılması tərbiyəçilərdən məharət və ustalıq tələb edir. Hər bir tərbiyəçi bilməlidir ki, onun nəql etdiyi nağıl canlı, emosional olmalı və real səslənməlidir. O, nağılın mətnini əzbərdən bilməli, onun ideyasını, məqsədini aydınlaşdırmağı bacarmalı, sonra isə hisslərini gizlətmədən onu uşağa elə çatdırmalıdır ki, uşaq hadisələrin həqiqiliyinə inansın. Tərbiyəçi uşaqlara nağıl vasitəsi ilə vətənə məhəbbət, onun qorunması uğrunda mübarizliyi aşılayaraq gələcəkdə vətənpərvər insan kimi yetişməsinə zəmin hazırlayır [2, s. 24].

Məktəbəqədər yaşlı uşaqlarda doğma vətəni qorumaq, xalq içərisindən çıxmış qəhrəmanların igidlik və şücaətini əks etdirən qəhrəmanlıq dastanlarından “Kitabi-Dədə Qorqud”, “Koroğlu”, “Molla Nur”, “Qaçaq Nəbi”, “Qaçaq Kərəm”, “Səttarxan” və s. dastanlarımız buna nümunədir.

“Kitabi-Dədə Qorqud” dastanında şəxsiyyətin keyfiyyətləri konkret olaraq göstərilir. Onun

əsas ideyasını vətənpərvərlik, yurd sevgisi təşkil edir. Vətəni, torpağı, eli-obanı sevmək və onu qorumaq üçün canından keçməyə hazır olmaq, şəxsi mənafeyinin güdülməməsi, mərd olmaq, düşmənin hiyləsinə uymamaq və ona nifrət hissi bəsləməyi bacarmaq, söz və əməl birliyini qorumaq və s. keyfiyyətləri özündə ehtiva edir. Dastanda yetişən nəsildə uşaqlara kiçik yaşlarından vətənə məhəbbət tərbiyəsi üçün ilk növbədə onlara vətənin gözəlliklərini duymağa və sevdirməyə istiqamətlənir.

Doğma vətənə məhəbbət mövzusu atalar sözlərində də mühüm yer tutur. Bir çox atalar sözlərində qəhrəmanlıq, igidlik tərif edilir, xalq bütün övladlarını bu ənənələr üzərində tərbiyələndirməyə çalışır. Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik ruhunda tərbiyəsində atalar sözlərinin təsir gücü müstəsnadır. Əsrlər boyu gəlib çatmış deyimlər uşaqların vətənə məhəbbət tərbiyəsində əhəmiyyətli dərəcədə rol oynamışdır:

- Vətənə gəldim, imana gəldim.
- Doğma yurd şirin olar.
- Hər kəsə öz vətəni əzizdir.
- Anam kimi yar olmaz, ölkəm kimi diyar.

Məktəbəqədər yaşlı uşaqlarla aparılan vətənpərvərlik tərbiyəsi işində şifahi xalq ədəbiyyatı nümunələri onların vətənə məhəbbət və sədaqət ruhunda tərbiyəsində xalqımıza xas olan mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərir. Kiçik yaşlarda doğma mədəniyyətin mənəvi və estetik dəyərlərinin varisliyini daşıyan folklor nümunələri vətənpərvərlik tərbiyəsinin, ölkənin tarixinə hörmət və doğma yurd sevgisini aşılamaq üçün ən yaxşı vasitələrdən biridir.

**Məqalənin aktuallığı.** Azərbaycan Respublikasının dünyaya inteqrasiyası tərbiyə və milli-mənəvi dəyərlərin təbliğinə yeni yanaşmaları cəlb edir. Müasir dövrdə kiçik yaşlarından uşaqların vətənpərvərlik tərbiyəsi xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik tərbiyəsinin vasitəsi kimi konkret olaraq müəyyən üsul və vasitələrin irəli sürülməsi, əsaslandırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisəsinin işçiləri və bu sahədə təhsilalanlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Rüstəmova N.M., Zeynalova Z.Ə., Abdullayeva K.N. Folklor nümunələrində məktəbəqədər yaşlı uşaqların tərbiyəsi problemi: Dərs vəsaiti. Bakı, 2011.
2. Vəliyeva Z., Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsi. Bakı, 1975.
3. Həşimov Ə., Sadıqov F. Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
4. Səlimxanova X.İ., Məktəbəqədər tərbiyə müəssisələrində şifahi xalq ədəbiyyatı nümunələrinin öyrədilməsi. Bakı, 1985.

**Н.В. Гаджизаде**

## Узоры фольклора как средство патриотического воспитания детей младшего возраста

### Резюме

Наблюдения показывают, что патриотическое воспитание детей и молодежи заложено в основу их патриотического отношения. Основное внимание здесь уделяется взаимодействию друг с другом, и их отношения направлены на формирование нравственных и духовных ценностей. В то же время большое внимание уделяется национальной культуре, традициям, защите родного языка, любви на родине, выполнению родины и здоровому образу жизни. Любовь к родине должно прививаться детям еще в раннем возрасте. Богатый фольклор Азербайджана, а также письменные и устные примеры литературы являются ценным источником для развития любви детям к родному краю.

**N.V. Hajizada**

## Patterns of folklore as a means of patriotic upbringing of young children

### Summary

Observations show that the patriotic education of children and youth is taken as a basis to form their patriotic attitude. The main focus here is to interact with each other and their relations are directed to the formation of moral and spiritual values. At the same time, great attention is paid to national culture, traditions, protecting mother tongue, love in native land, fulfillment of homeland and healthy lifestyle. The sense of love and affection for homeland must be taught children who are our future from their early years. The rich folklore of Azerbaijan, the sample of oral and written literature are very valuable source for children to teach them the sense of love and commitment to native land.

**Redaksiyaya daxil olub:** 26.02.2020